Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Yaraşıqlı Ağılsız Padşah

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Janie Forest; Alastair Paterson

Uyğunlaşdıran: Lyn Doerksen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2021 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

İsrailin hakimi və başçısı Şamuel yaşlanmışdı.  O, Allaha xidmətdə öz yerini tutmaq üçün oğullarını İsrail üzərində hakim etdi. Ancaq Şamuelin oğulları zalım idi.  Onlar pulu sevirdilər və öz qüvvələrini şərəfsiz yolla pul qazanmaq üçün istifadə edirdilər.



İsrail xalqı oğulların zalımlıqlarına görə əzab çəkirdi. Məhkəmələr ədalətsiz olurdu. Xalq hər dəfə kömək istədiyi vaxt Şamuelin oğullarına pul verməli olurdu.



Nə isə edilməliydi.  Bir gün İsrailin ağsaqqalları bir yerə toplaşdılar və Şamueldən kömək istədilər.



Ağsaqqallar tələb etdilər: “Bizə hakim olmaq üçün padşah ver”.  Onlar Şamuelin zalım oğullarının onlara hakimlik etməsini istəmirdilər.  Onlar ətraflarındakı millətlərdə olduğu kimi, padşah istəyirdilər.



Şamuel qəzəbləndi.  İsrailin Padşahı artıq var idi!  Qüdrətli Allah, Əbədi Olan İsrail üzərində hökmranlıq edirdi.  O, İsraillilərin qurtulması üçün Qırmızı Dənizi açaraq onları Misirdəki köləlikdən azad etmişdi.


Sonra O, İsrailə gözəl
torpaqlar vermişdi.

Şamuel dua edəndə Rəbb dedi: “Onlar səni yox, Məni rədd etdilər ki, onların üzərində hökmranlıq etməyim.  Onlar başqa allahlara qulluq etdilər, onların səsinə qulaq as və onlara padşah ver”.





Allah Şamuelə dedi ki, xalqa bu barədə xəbərdarlıq etsin: cismani padşah onların pullarından vergi tutacaq; onların ən yaxşı tarlalarını və üzüm bağlarını alıb əyanlarına verəcək; oğullarını döyüşə aparacaq; qızlarını özü üçün işləməyə məcbur edəcək.




Lakin xalq
yenə də padşah
istəyirdi.



Allah Şamueli çox yaraşıqlı, çox utancaq və çox HÜNDÜR - hamıdan bir baş hündür olan bir gəncin yanına apardı. Onun adı Şaul idi. Şamuel Şaulu görəndə Rəbb dedi: “Bu adam Mənim xalqım üzərində hökmranlıq edəcək”.



Şamuel itaətkarlıqla Şaulu İsrailin padşahı kimi məsh etdi.  O, Şaulu İsrail xalqına təqdim edəndə onlar qışqırıb dedilər: “Yaşasın padşah!”

Tezliklə padşah Şaul sınaqdan keçirildi. İsrailə nifrət edən Ammonlular İsraillilərin şəhərini mühasirəyə aldılar və hər bir adamın sağ gözünü çıxartmaqla hədələdilər. Necə də qəddar plandır!



Hədələmək xəbəri padşah Şaula çatdı.  O, öz ordusunu hazırladı.





İki ordu qarşılaşanda Şaul Ammonluları qırdı və şəhəri xilas etdi. Padşah Şaul Allaha izzət verərək dedi: “… bu gün Rəbb İsrailə qurtuluş verdi!”

Həmin gün Allah Şaula böyük qələbə verdi.  Ancaq Şaul həmişə Allaha ehtiram etmirdi.  Bir gün, Filiştlilərlə döyüşməzdən əvvəl, Şaul Allaha qurban təqdim etdi.



O bilirdi ki, bu, Şamuelin vəzifəsi idi.  O bilirdi ki, Allah, Şamuel gəlib bunu edənə qədər onun gözləməsini istəyirdi. Ancaq Şaul Allaha itaətsizlik etdi!



Şamuel gələndə o, Şaula dedi: “Sən ağılsızlıq etdin.  Sən Allahın Rəbbin əmrinə əməl etmədin. Sənin padşahlığın davam etməyəcək”.



Ola bilsin ki, Şaul bunun balaca bir günah olduğunu düşünmüşdü.  Lakin Allaha itaətsizlik həmişə ciddidir.



Başqa bir vaxt Allah Şaula Amaleqlilərin pozğun xalqını məhv etməsini əmr etdi. Ancaq Şaul və xalq Amaleqin padşahı Aqaqı öldürmədi.



Onlar həmçinin dəyərli şeyləri, qoyunları və öküzləri də saxladılar.  Şaul dedi ki, onlar bu şeyləri Rəbbə qurban gətirmək üçün saxladılar.





Şamuel Şaula dedi: “İtaət etmək qurban gətirməkdən daha yaxşıdır.  Sən Rəbbin sözünü rədd etdin və Rəbb də səni İsrail üzərində padşah olmaqdan rədd etdi”. Şaul öz günahına görə çox peşman oldu.  Amma bu çox gec idi.  Onun həyatının qalan hissə uğursuz keçdi, çünki o, Rəbbə itaət etmirdi.

# Yaraşıqlı Ağılsız Padşah

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Şamuel 8-16

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130

Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir. Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi! Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan. Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim. Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et. Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış! Yəhya 3:16**